Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

N.N.Nosov

# YAMAQ



*AZƏRNƏŞR - 1963*



N. NOSOV

# YAMAQ



*Şəkillər İ. Semyonovundur*



AZƏRBAYCAN DÖVLƏT NƏŞRİYYATI
BAKI-1963



# YAMAQ

Bobkanın yaşıl, daha doğrusu xaki rəngli qəşəng bir şalvarı vardı. Bobka şalvarını çox xoşlayırdı, həmişə öyünüb deyirdi:

– Uşaqlar, görün necə şalvarım var. Lap əsgər şalvarıdır!

Əlbəttə, uşaqlar ona həsəd aparırdılar. Çünki heç kəsin yaşıl şalvarı yox idi.

Bir dəfə Bobka hasardan aşanda bu qəşəng şalvarı mismara ilişib cırıldı. O, hirsindən az qaldı ağlasın, tez evə qaçıb anasından xahiş etdi ki, şalvarın cırığını tiksin.

Anası acıqlandı:

– Sən hasarlara çıxıb şalvarını cıracaqsan, mən də yamaq vuracağam?

– Ana, bir də çıxmayacağam, şalvarımı tik!

– Özün tik.

– Axı mən tikmək bacarmıram!

– Cırmağı bacarırsan, tikməyidə bacar.

– Onda mən də elə-belə gəzəcəyəm, – deyə Bobka mızıldandı və həyətə getdi.

Uşaqlar onun şalvarındakı yırtığı görüb gülməyə başladılar.

– Sən necə əsgərsən ki, şalvarın cırıqdır? – dedilər.

Bobka isə özünü təmizə çıxarmaq üçün dedi:

– Neyləyim, anamdan xahiş etdim, tikmək istəmədi.

Uşaqlar dedilər:

– Əsgərlərin şalvarını heç anaları yamayır? Əsgər hər şeyi özü bacarmalıdır. Yamaq salmağı, düymə tikməyi...





Bobka utandı.

O, evə gedib anasından iynə, sap, bir də yaşıl parça istədi. Parçadan əl böyüklükdə kəsib şalvarına tikməyə başladı. Bu, o qədər də asan iş deyildi. Həm də Bobka çox tələsdiyindən iynə tez-tez onun əlinə batırdı.

– Zəhrimara qalasan, əlimi niyə sancırsan?! – deyə o, iynəyə acıqlandı və lap ucundan elə ehtiyatla tutdu ki, barmağına batmasın.

Nəhayət, şalvarı yamadı. Ancaq yamaq çox səliqəsiz salınmışdı; lap qurumuş göbələyə oxşayırdı, parça hər tərəfdən elə büzülmüşdü ki, şalvarın bir qıçı gödəlmişdi.

– Yox, belə yaramaz, – deyə Bobka şalvara baxıb mızıldandı, – bayaqkından da pis oldu. Gərək təzədən yamayam.

O, bıçağı götürüb yamağı sökdü, yenidən hamarlayıb şalvarın yırtıq yerinə qoydu, karandaşla yaxşıca cızıb yerini nişanladı və təzədən tikməyə başladı. İndi o, tələsmədən, səliqə ilə tikir və tez-tez yoxlayırdı ki, yamaq nişanladığı cızıqdan kənara çıxmasın.

Bobka çox əlləşdi, fısıldadı, nıqqıldadı, tikib qurtardı, indi yamağa baxanın həvəsi gəlirdi. Bobka onu düz yerində tikmişdi, heç büzməmişdi. Yamağı həm də elə möhkəm tikmişdi ki, heç dişlə də qopartmaq olmazdı.

Nəhayət, Bobka şalvarını geyib həyətə çıxdı. Uşaqlar onun başına toplaşdılar.

Onlar dedilər:

– Afərin! Uşaqlar, bir baxın, yamaq qələmlə nişanlanıb. O saat görünür ki, özü tikib.

Bobka isə hər tərəfə çevrilirdi ki, hamı görsün.

Bobka dedi:

– Eh, bircə düymə tikməyi də öyrənsəm, yaxşı olar, heyif ki, hamısı yerindədir, biri də düşməyib! Eybi yoxdur, nə vaxt düşsə, mütləq özüm tikəcəyəm.





## ŞÜŞƏ KONFET

Mişanın anası evdən çıxanda dedi:

– Mişa, oğlum, bax mən gedirəm, özünü yaxşı apar. Nadinclik eləmə, mənsiz heç nəyə əl vurma. Sözümə baxsan, gələndə sənə iri qırmızı şüşə konfet bağışlayacağam.

Ana getdi. Mişa əvvəlcə özünü yaxşı apardı; nadinclik etmədi, heç bir şeyə də toxunmadı. Sonra stulu bufetə yaxınlaşdırıb üstünə çıxdı, qapısını açdı.

O, bufetin içinə baxıb düşünürdü:

"Mən ki heç nəyə toxunmuram, eləcə baxıram".

Bufetin içində qənddan vardı. Mişa qənddanı götürüb stolun üstünə qoydu. "Mən eləcə baxacağam, heç nəyə əl vurmayacağam", – deyə düşündü. Qənddanın qapağını götürəndə içərisində qırmızı bir şey gördü.



– Oho... – deyə Mişa dilləndi, – bu ki şüşə konfetdir! Yəqin anam mənə bunu deyirdi.

O, əlini qənddana salıb konfeti götürdü.

– Gör... necə də böyükdür, yəqin lap şirindir.

Mişa konfeti yaladı. Sonra da öz-özünə düşündü:

"Bir azca sorub yenə yerinə qoyaram".

Sormağa başladı. Sorur, sorur, hərdənbir də çıxarıb baxırdı ki, görsün hələ çoxmu qalıb. Hər dəfə də ona elə gəlirdi ki, hələ çox qalıb. Nəhayət, şüşə konfet əriyib lap nazildi, kibrit boyda oldu. Bu vaxt Mişa onu yerinə qoydu. Dayanıb, barmaqlarını yalaya-yalaya gözlərini qənddandan çəkmirdi. Konfetə baxıb fikirləşirdi:

"Hamısını yeyəcəyəm. Onsuz da anam mənə verəcəkdi. Axı mən özümü yaxşı aparıram, nadinclik etmirəm".

Mişa şüşə konfeti götürüb ağzına qoydu, qənddanı isə yerinə qoymaq istədi. Əlinə götürdü, qənddan onun şirəli əllərinə yapışdı və birdən yerə düşüb sındı. İki parça oldu. İçərisindəki qənd dağıldı.





Mişa qorxdu.

"İndi anam nə deyəcək? "

Mişa qənddanın sınıq parçalarını götürüb bir-birinə yapışdırdı. Qənddanın sınığı heç bilinmirdi. Mişa yerə tökülən qəndləri yığışdırdı, qənddana töküb qapağını örtdü, yavaşca bufetə qoydu.

Bir azdan anası gəlib dedi:

– Hə, de görüm özünü necə aparmısan?

– Yaxşı.

– Ay mənim ağıllı balam, indi gəl, şüşə konfetini al.

Ana bufeti açıb qənddanı götürdü... Qənddan iki böləndü, qənd döşəməyə dağıldı.

– Bu nədir, qənddanı kim sındırıb...

– Mən sındırmamışam. Özü sınıb...

– Deməli, özü sınıb... aydındır. Bəs şüşə konfet necə olub?

– Konfet... konfet... yedim. Mən özümü yaxşı apardım, ona görə də yedim. Vəssalam...




## OYUNBAZLAR

Valya ilə mən oyunbazıq. Həmişə özümüzdən bir oyun düzəldirik. Bir dəfə biz "Üç donuz balası" nağılını oxuyurduq. Sonra başladıq oynamağa. Əvvəlcə biz otaqda qaçır, atılıb-düşür və qışqırırdıq:

– Biz qorxmuruq boz qurddan, boz qurddan!

Anam mağazaya gedəndən sonra Valya dedi:

– Petya, gəl biz də nağıldakı donuz balaları kimi özümüzə ev düzəldək. Çarpayıdan adyalı götürüb onunla stolun dörd tərəfini örtdük. Bax, ev düzəldi. İkimiz də onun içinə girdik, ancaq bura yaman qaranlıq idi.

Valya dedi:

– Bu yaxşı oldu, indi bizim öz evimiz var! Həmişə burada yaşayarıq, heç kəsi içəri buraxmarıq, əgər boz qurd gəlsə, onu qovarıq.



Mən dedim:

– Heyif ki, evimizin pəncərəsi yoxdur, içəri çox qaranlıqdır!

– Eybi yoxdur, – deyə Valya dilləndi. – Axı, donuz balalarının evi pəncərəsiz olur.

Mən ondan soruşdum.

– Sən məni görürsən?

– Yox. Bəs sən məni?

– Mən də yox, – dedim, – heç özümü də görmürəm.

Birdən kimsə mənim ayağımdan yapışdı! Mən elə qışqırdım ki!.. Tez stolun altından çıxdım, Valya da mənim ardımca.

– Sənə nə oldu? – deyə soruşdu.

– Kimsə mənim ayağımdan tutdu. Bəlkə boz qurddur, hə?

Valya qorxub bayıra qaçdı. Mən də onun ardınca. Dəhlizə qaçıb qapını bərk örtdük. Mən yavaşcadan Valyaya dedim:

– Gəl qapını bərk tutaq, qurd aça bilməsin.





İkimiz də qapını bərk-bərk tutub saxladıq. Birdən Valya dedi:

– Bəlkə orda heç kəs yoxdur?

Mən dedim:

– Bəs onda mənim ayağıma toxunan kim idi?

Valya dedi:

– O mən idim, qaranlıqda axtardım ki, görüm hardasan.

– Bəs bunu bayaqdan niyə demirsən?

Valya dedi:

– Mən qorxdum, sən məni qorxutdun.

Biz qapını açdıq. Otaqda heç kəs yox idi. Amma yenə də stola yaxınlaşmağa qorxurduq, fikirləşirdik ki, birdən stolun altından boz qurd çıxar.





– Get adyalı götür.

Valya da mənə dedi:

– Yox, sən özün get!

Mən dedim:

– Orda ki, heç kəs yoxdur.

– Bəlkə var!

Mən ayağımın ucunda stola yaxınlaşdım, adyaldan tutub dartdım və tez qapıya tərəf qaçdım. Adyal yerə düşdü, stolun altında heç kəs yox idi. Biz sevindik. Evimizi yenidən qurmaq istəyirdik ki, Valya dedi:

– Birdən yenə ayağından tutan olar!

Ona görə daha "Üç donuz balası" oyunu oynamadıq.

Tərcümə edəni: Fərman Eyvazlı

**Носов Николой Николаевич**
**ЗАПЛАТКА**
(*на азербайджанском языке*)

Redaktoru: **S. Tahirova**
Bədii redaktoru: **F. Quliyev**
Texniki redaktoru: **B.X. Qurbanova**
Korrektoru: **M. Təfəkkülova**

Çapa imzalanmış 14/XI 1963-cü il. Formatı 60x90 $^{1}/_{8}$. Fiziki və şərti çap vərəqi 2,5. Uçot nəşr. vərəqi 2,1. Sifariş № 958. Tirajı 15000.
Qiyməti 15 qəp.

Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, Hüsü Hacıyev küçəsi, № 4.
Azərbaycan SSR Nazirlər Soveti Dövlət
Mətbuat Komitəsinin 26 komissar adına mətbəəsi,
Bakı, Əli Bayramov küçəsi, № 3.



Çapa imzalanmışdır: 10.03.2016.
Ofset çap kağızı.
Formatı: 60x84 1/8.
Həcmi: 2 ç.v.
Sifariş 6.
Tiraj: 500.

Kitab "Nağıl Evi-N" mətbəəsində
ofset üsulu ilə çap olunmuşdur.

*Təkrar çap zamanı ilk nəşrin
kitab göstəriciləri olduğu kimi saxlanılmışdır*

Bərpanəşr

**Bakı-2016**